# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**“Aqrar Sığorta Fondu”nun ləğv edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 03 iyun tarixli 18-VII FR nömrəli Fərmanının icrasının təmin edilməsi barədə**

“Aqrar Sığorta Fondu”nun ləğv edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 03 iyun tarixli 18-VII FR nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə:

1. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının “Aqrar Sığorta Fondu”nun ləğv edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 03 iyun tarixli 18-VII FR nömrəli Fərmanına (bundan sonra – Fərman) uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları bir aydan gec olmayaraq, Fərmanın icrasını təmin etmək məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ hüquqi aktlarını və ya təkliflərinin olmadığı barədə məlumatı Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsinlər və icra vəziyyəti tələb etdikdə, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

3. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Fərmana uyğunlaşdırılmasını təmin edib, bu barədə iki ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Fərmanın 2.1-ci bəndinin icrası ilə əlaqədar aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət ləğvetmə komissiyasının formalaşdırılmasını və ləğvetmə prosesinin mülki qanunvericiliyin tələblərinə uyğun həyata keçirilməsini təmin etsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Ceyhun Cəlilov**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, “ 5 ” “ iyun ” 2025-ci il

№ 75s